# Milli Məclisin deputatları Ələt Azad İqtisadi Zonasında görülən işlərlə tanış olublar





İyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin başçılığı ilə parlamentin bir qrup deputatı Ələt Azad İqtisadi Zonasında (Ələt AİZ) olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində deputatlar zonada aparılan işlərlə, yaradılan şəraitlə yaxından tanış olublar. Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov deputatları zonanın ərazisi ilə tanış edib. Valeh Ələsgərov deputatlara Ələt AİZ-in inkişaf konsepsiyası haqqında danışıb, zonada beynəlxalq standartlara uyğun yaradılan infrastruktur, istehsalat, ticarət və logistika mərkəzləri, gömrük-keçid məntəqəsi, eləcə zonada fəaliyyət göstərəcək xidmətlər haqqında geniş məlumat verib.

Sonra deputatlara Ələt Azad İqtisadi Zonası haqqında təqdimat nümayiş etdirilib. Valeh Ələsgərov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı icra olunan layihələrdən söz açıb, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələrin həyata keçirilməsindən bəhs edib. Ələt AİZ-in ixrac potensialının artırılması, xarici investisiyaların cəlb edilməsi istiqamətində böyük əhəmiyyəti olan işlərin görüldüyünü vurğulayıb. Valeh Ələsgərov təqdimatda AİZ-in investorlara təklif etdiyi əlverişli işgüzar mühit, unikal qanunvericilik bazası, fiskal və qeyri-fiskal imtiyazlar və güzəştlər paketi, ticarətin sadələşdirilməsinə əsaslanan gömrük rejimi, ixtisaslaşmış personal və investorların hüquqlarının tam qorunması və digər imkanlar barədə ətraflı məlumat verib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycanın ən böyük qeyri-neft sektoru layihəsi olan Ələt Azad İqtisadi Zonasının yaradılmasını ölkəmizin iqtisadiyyatına xarici sərmayələrin cəlb olunması və qeyri-neft sektorunun inkişafı baxımından yüksək qiymətləndirib. Komitə sədri Ələt AİZ-in yeni texnologiyaların, innovasiyaların ölkəmizə gətirilməsi və yeni iş yerlərinin açılması baxımından əhəmiyyətini xüsusi qeyd edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Ziyad Səmədzadə, Məşhur Məmmədov, Aydın Hüseynov, Elnur Allahverdiyev, Rüfət Quliyev, İqbal Məmmədov, İltizam Yusifov, Razi Nurullayev çıxışlarında iqtisadi zonada investorların cəlb olunması üçün münbit şəraitin yaradılmasından bəhs ediblər, azad zonanın fəaliyyəti üçün mükəmməl normativ hüquqi bazanın olduğunu söyləyiblər. Deputatlar zonanın ölkənin qeyri-neft sektorunun inkişafına və regional əməkdaşlığa, ticarət dövriyyəsinin artmasına yüksək töhfə verəcəyini, vətəndaşların sosial rifahına müsbət təsir göstərəcəyini qeyd ediblər.

*"Azərbaycan"*

Azərbaycan.- 2022.-3 iyun.- S.3.